

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 49 (21.201)

11 mart 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Rusiya Federasiyası Prezidentinin köməkçisi, Rusiya Federasiyası Olimpiya Komitəsinin vitse-prezidenti İqor Levitini qəbul edib.

İqor Levitin Soçi Qış Olimpiya Oyunlarına həsr olunmuş xatirə albomunu dövlətimizin başçısına təqdim etdi. Rusiya idmançılarının Bakıda keçiriləcək Birinci Avropa Oyunlarına ciddi hazırlaşdıqlarını vurğulayan İqor Levitin Rusiyanın bu tədbirdə 300-ə yaxın idmançı ilə təmsil olunacağını dedi.

Dövlətimizin başçısı Soçi Qış Olimpiya Oyunlarında Rusiyanın əldə etdiyi nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsindən qısa vaxt keçməsinə baxmayaraq, bu istiqamətdə böyük işlərin görüldüyünü vurğuladı və Oyunların yüksək səviyyədə təşkil olunması üçün Azərbaycanın bütün səylərini əsirgəmədiyini bildirdi. Dövlətimizin başçısı bu idman yarışının təkcə ölkəmiz üçün deyil, ümumilikdə, idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi önəmini qeyd etdi.

* * *

Martın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Biləcəri qəsəbəsində Bakı Atıcılıq Mərkəzinin açılışında iştirak ediblər.



## "Naxçıvan" Universiteti üçün möhtəşəm universitet şəhərciyi salınıb



***"Naxçıvan" Universiteti üçün 7 binadan və yardımçı tikililərdən ibarət möhtəşəm universitet şəhərciyi salınıb. Arxitektura baxımından mükəmməl tikilmiş tədris korpusları yüksək zövqlə dizayn edilib. Yeni universitet şəhərciyi tələbələrin daha müasir şəraitdə təhsil almalarına geniş imkanlar açacaq.***

Hazırda ali təhsil ocağında 2000-2500 tələbənin təhsil ala biləcəyi tədris bazası yaradılıb. Həmçinin üçmərtəbəli sosial mərkəz binasında son tamamlama işləri aparılır. 314 nəfərlik yataqxana binası isə istifadəyə hazırdır.

Müasir universitet şəhərciyinə sahib olan ali təhsil ocağının beynəlxalq əlaqələrinin daha da inkişafı üçün də geniş zəmin yaradılıb. Belə ki, Türkiyənin Muş "Alparslan", Kastamonu, Uşak, Nevşehir, Yaxın Doğu, Fırat, Bitlis Eren, Ordu, Kırıkkale universitetləri ilə tələbə-müəllim mübadiləsinə dair protokollar imzalanıb. Bundan başqa, Rumıniyanın "Spiru hayet", Çexiyanın "Palacky" və Latviyanın Beynəlxalq Baltik Akademiyası ilə əməkdaşlığa dair memorandum imzalanıb. Beləliklə, "Naxçıvan" Universitetinin əməkdaşlıq etdiyi xarici ölkələrdəki ali təhsil müəssisələrinin sayı 18-ə çatıb. Naxçıvana gələn xarici ölkələrin akademik heyətləri də ali təhsil ocağının maddi-texniki bazasının, kadr potensialının kifayət qədər yüksək səviyyədə formalaşdırıldığını vurğulayırlar. 2014-cü ildə universitetə 253 tələbə qəbul olunub. Bunlardan 210-u muxtar respublika məktəblərinin məzunları, 43-ü isə Azərbaycanın digər bölgələrindən olanlardır. Hazırda universitetdə 971 tələbə, 1 magistrant təhsil alır.

## "Cahan" Ticarət Kompleksində kənd təsərrüfatı məhsullarının satışı bazarı istifadəyə veriləcək

***Naxçıvan Muxtar Respublikasında əhaliyə yüksəkkeyfiyyətli məhsullar təklif olunmaqla nümunəvi xidmət etmək imkanlarına malik müasir ticarət mərkəzləri tikilib istifadəyə verilir. Belə müəssisələrdən biri də "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan şəhərindəki Əziz Əliyev küçəsində fəaliyyət göstərən "Cahan" Ticarət Kompleksidir.***




"Cahan" Ticarət Mərkəzi kimi fəaliyyətə başladığı dövrdən ötən müddət ərzində ticarət mərkəzinə istər alıcı, istərsə də satıcı qismində müraciət edənlərin sayı artıb, kompleksin yenidən qurulması və yeni korpusun inşa olunması zərurəti yaranıb. Digər sahibkarlıq subyektləri kimi, "Cahan" Məhdud Məsuliyyətli Cəmiyyəti də göstərilən dövlət qayğısından bəhrələnib, təqdim olunmuş layihəyə uyğun Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. Ötən il kompleksin ərazisində müxtəliftəyinatlı mağazaların və digər xidmət sahələrinin fəaliyyət göstərdiyi ikimərtəbəli yeni korpus tikilib istifadəyə verilib. Burada biznes fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə normal şərait yaradılıb. Ayrı-ayrı mağazalar müasir isitmə, soyutma və havalandırma sistemi ilə təmin edilib, hər bir mağazaya telefon xətti çəkilib. Burada hər bir sahibkara və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşlara internetdən istifadə etmək imkanı da yaradılıb. Həmçinin "Cahan" Ticarət Kompleksinin əsas binasında yenidənqurma işləri aparılıb, mağazalarda satışa çıxarılan müxtəlif çeşiddə malların reklamını və ticarət mərkəzinin xidmətindən istifadə edən vətəndaşların məlumatlandırılmasını təmin etmək məqsədilə ticarət kompleksində ayrı-ayrı yerlərdə monitorlar quraşdırılıb. Layihəyə uyğun olaraq, kompleksin əsas binasının ətrafında yeni mağaza və müasir avadanlıqlarla təmin olunmuş kafeteriyalar istifadəyə verilib. Eyni zamanda ticarət kompleksinin giriş-çıxış avtomobil yollarına asfalt-beton örtük salınıb və burada avtomobil dayanacağı yaradılıb.

Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan sahibkarların artan müraciətləri nəzərə alınaraq, ticarət kompleksinin ərazisində fəaliyyət göstərən kənd təsərrüfatı məhsullarının satışı bazarında da yeni müasir korpusun tikilərək sahibkarların istifadəsinə verilməsi zərurəti yaranıb. Bu məqsədlə hazırlanmış layihəyə uyğun olaraq, cari ilin əvvəlində "Cahan" Ticarət Kompleksinin ərazisində ayrı-ayrı bölmələrin fəaliyyət göstərəcəyi kənd təsərrüfatı mallarının satışı bazarında əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İnşaat işlərinin vaxtında və keyfiyyətli aparılması üçün obyektə "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin təcrübəli inşaatçıları və müasir maşın-mexanizmləri cəlb olunub. Yeni korpusda dəmir konstruksiya və hörgü işləri vaxtında başa çatdırılıb, dam örtüyü vurulub. Mövcud su, kanalizasiya, elektrik və qaz xətləri yenilənib, müasir işıqlandırma sistemi qurulub. Həmçinin ət və ət məhsullarının satışı üçün ayrı-ayrı mağazalar tikilib, təyinatına uyğun fəaliyyəti üçün əlverişli şərait yaradılıb. Hazırda ticarət kompleksinin kənd təsərrüfatı məhsullarının satışı bazarında son tamamlama işləri görülür. Yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulan bazarda fiziki şəxslər kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olacaqlar. Burada ilboyu satılan məhsullarla yanaşı, mövsümlə əlaqədar artan tələbat da nəzərə alınıb, həmin məhsulların ticarət kompleksində rahat şəkildə satılması üçün lazımi şərait yaradılıb.

***Avropa Birliyinin TEMPUS proqramı çərçivəsində həyata keçirilən "Davamlı turizmin idarə olunması sahəsində beynəlxalq bakalavr və magistr proqramları üçün yeni modulların hazırlanması" layihəsinin rəhbərləri Naxçıvan Dövlət Universitetində olublar.***

Avropa ölkələri təhsil sistemlərinə inteqrasiya və ümumavropa ali təhsil məkanının formalaşdırılması baxımından Avropa təhsil prosesini özündə əks etdirən TEMPUS proqramı xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Dövlət Universiteti TEMPUS proqramı çərçivəsində 5 layihənin iştirakçısıdır.

## TEMPUS proqramı çərçivəsində universitetdə turizm mərkəzi yaradılacaq

Layihənin meneceri, Almaniyanın Yade Tətbiqi Elmlər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Gila Altmann, layihənin rəhbər komitəsinin üzvü, birinci işçi qrupunun rəhbəri, Almaniyanın Vorms Tətbiqi Elmlər Universitetinin vitse-prezidenti, professor Knut Scherhag universitet kampusunu gəzərək tədris prosesi, maddi-texniki baza ilə tanış olublar. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonaqlara universitet barədə məlumat verib. Qeyd olunub ki, universitetin bütün binaları arasında fiber-optik kabellə şəbəkə qurulub, 108 hektarlıq kampusda simsiz internet şəbəkəsi yaradılıb. Virtual əməkdaşlığın genişləndirilməsi, beynəlxalq videokonfransların təşkili üçün senat otağında polikam kamera, 21 nəfərlik mikrofon, 3 elektron monitor və 1 elektron kürsü quraşdırılıb.

İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzində quraşdırılan server avadanlıqları, elektron mühafizə sistemi, elektron test imtahanlarının gedişinin kameralar vasitəsilə müşahidə olunması almaniyalı qonaqlarda maraq doğurub. Media Mərkəzində isə bildirilib ki, "Universitet" televiziyası və "Nuhçıxan" radiosu Naxçıvan şəhərində rəqəmsal formatda yayımlanır.

Rektor vurğulayıb ki, müasir dövrdə Avropa ölkələri təhsil sistemlərinə inteqrasiya və ümumavropa ali təhsil məkanının formalaşdırılması baxımından Avropa təhsil prosesini özündə əks etdirən TEMPUS proqramı xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Dövlət Universiteti TEMPUS proqramı çərçivəsində 5 layihənin iştirakçısıdır.

Sonra 2012-ci ildən icrasına başlanılan "Davamlı turizmin idarə olunması sahəsində beynəlxalq bakalavr və magistr proqramları üçün yeni modulların hazırlanması" layihəsi ilə bağlı məsələlər barədə söhbət aparılıb. Qeyd edilib ki, 30 universitetin təmsil olunduğu layihənin əsas məqsədi davamlı turizmin idarə olunması üzrə kurikulumların müasirləşdirilməsi və davamlılıq prinsipləri haqqında birgə anlayışı inkişaf etdirməkdir. Layihənin Naxçıvan üzrə koordinatoru, universitetin Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov bu istiqamətdə bir sıra işlər görüldüyünü bildirib.

Müzakirə zamanı layihənin müddətinin bir il daha uzadılması, layihə çərçivəsində universitetdə turizm mərkəzinin yaradılması, onlayn treninqlərin keçilməsi və eləcə də xarici mütəxəssislərin treninq keçməyə dəvət edilməsi, layihə bitdikdən sonra da universitetlərarası əməkdaşlığın davam etdirilməsi ilə bağlı məsələlərdən bəhs olunub.

Gila Altmann universitet haqqında onda zəngin təəssüratlar yarandığını söyləyib. Bildirib ki, çox zəngin və qədim tarixə malik Naxçıvanda turizm növlərinin inkişafı üçün geniş potensial, əlverişli şərait vardır. Adıçəkilən layihə də məhz buna xidmət edəcək.

## Əkin sahələrinin sığortalanması işi davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi və rayon Dövlət Sığorta agentlikləri payızlıq buğda və arpa məhsulu istehsalçıları üçün taxıl əkini sahələrinin sığortalanması işini davam etdirir. Əkin sahələri sığortalandıqdan sonra yanğın, dolu, sel, daşqın və ya şaxtavurma zamanı məhsula dəyə biləcək maddi zərərlər sığorta agentlikləri tərəfindən ödəniləcəkdir.

Mövcud qanunvericiliyə əsasən, əkin sahibləri bağladıqları sığorta müqavilələrinə görə, sığorta haqlarının yalnız 50 faizini ödəyirlər. Qalan məbləğ isə dövlət büdcəsinin vəsaitləri hesabına ödənilir.

Müasir dövrdə kənd təsərrüfatının inkişafı və təsərrüfatçılıqda mütərəqqi metodların tətbiqi məhsul bolluğuna səbəb olur. Ancaq reallıq budur ki, bəzən minbir zəhmət hesabına yetişdirilən məhsul qəfil, gözlənilməz təbii fəlakətlər – dolu, sel, daşqın, fırtına, ildırım vurması nəticəsində bir anda puç olur. Bu səbəbdən kənd təsərrüfatı qəfil hadisələrə çox həssas sahə hesab olunur. Çünki gözlənilmədən baş verən təbii fəlakət yüz hektarlarla taxıl sahələrinin məhsulunu məhv edə bilər. Onun nəticələrinin aradan qaldırılması isə çox zaman mümkün olmur.

Belə vəziyyətlərdə əziyyət çəkilərək yetişdirilən məhsulun dəyərinin əldə olunması hər bir vətəndaşa böyük maddi və mənəvi kömək olmaqla yanaşı, onun gələcəkdə işini inamla davam etdirməsinə də stimul verir. Məhz buna görə taxıl (buğda, arpa) istehsalçılarının gözlənilməz hadisələrdən dəyə biləcək zərərlərin ödənilməsi məqsədilə əkin sahələrinin məhsulunu sığorta etdirmələri onlara yalnız fayda gətirə bilər.

**Xəbərlər şöbəsi**

İcmal

# Fevral ayında da inkişaf meyilləri qorunub saxlanıldı

## *Ötən ay həm də 2015-ci ilin inkişaf strategiyasının istiqamətləri açıqlandı*

***Ulu öndər Heydər Əliyevin elmi əsaslara söykənən siyasəti, strateji yüksəliş xətti Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Hər ötən ay abadlıq, quruculuq işlərini həyata keçirən vətənsevər insanların fədakarlığı nəticəsində əldə edilən böyük nailiyyətlərin, yüksəlişin şahidi oluruq. Əldə olunan uğurlara əsaslanaraq fəxrlə deyə bilərik ki, 2015-ci ilin fevral ayı da bu baxımdan əlamətdar idi.***



Ötən ay bir sıra məqamları ilə yaddaqalan oldu. Fevral ayında muxtar respublikanın ictimai-siyasi, iqtisadi, mədəni həyatı üçün xüsusi əhəmiyyət kəsb edən iki müşavirənin – Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair və Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda müşavirələrin keçirilməsi 2015-ci ilin strateji inkişaf konsepsiyasının müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi. Bununla bərabər, fevralın 5-də Culfa rayonunun Bənəniyar kəndində, fevralın 16-da Şərur rayonundakı Kürkənddə yeni sosial obyektlərin açılışı, fevralın 27-də Babək Rayon Rabitə İdarəsinin yeni binasının istifadəyə verilməsi muxtar respublikanın hər bir yaşayış məntəqəsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair müşavirədə əldə edilən nailiyyətlər barədə qeyd olunan faktlar qədim diyarımızın 20 illik inkişaf salnaməsinə ötən ildə də yeni parlaq səhifələrin yazıldığından xəbər verirdi. Sevindirici haldır ki, 2014-cü ildə muxtar respublika iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafı təmin olunmuş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, özəl bölmənin inkişafına dövlət dəstəyi davam etdirilib. Məhz bunun nəticəsidir ki, ötən il Ümumi Daxili Məhsulda özəl bölmənin payı 87 faizi ötüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müşavirədəki çıxışında deyib: ***"2014-cü ilin sosial-iqtisadi inkişafının yekunları bir daha göstərdi ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda əvvəlki illərdə əldə edilmiş inkişaf meyilləri qorunub saxlanmışdır. Ötən il yaradılmasının 90 illik yubileyini təntənəli şəkildə qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial həyatın bütün sahələrində dinamik inkişaf təmin olunmuşdur".***

Bu il muxtar respublikada "Kənd təsərrüfatı ili" elan olunub. Muxtar diyarımızda əhalinin ərzaq məhsulları ilə təmin olunması, emal müəssisələrinin xammal təchizatındakı rolu, eləcə də əhalinin əksər hissəsinin kəndlərdə məskunlaşması və aqrar sektorda çalışması nəzərə alınaraq kənd təsərrüfatının inkişafı hər zaman diqqət mərkəzində saxlanılır. Bu barədə danışan Ali Məclisin Sədri sənayedə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların tətbiqinin təşviq edilməsini əsas vəzifə kimi qarşıya qoyub, yeni texnologiyaların, suvarma və əkin üsullarının, qabaqcıl təcrübənin kənd təsərrüfatında tətbiqinə diqqət göstərilməsinin, keyfiyyətli toxum sortlarından istifadə olunmasının, Ümumi Daxili Məhsul istehsalında kənd təsərrüfatının payının artırılmasının vacib olduğunu bildirib.

Həmin gün Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan müxtəlif növdə ərzaq və sənaye məhsullarının, eləcə də sənətkarlıq nümunələrinin və əl işlərinin sərgisi qədim diyarımızda istehsalatın artım gücünün, ümumilikdə isə iqtisadi inkişafımızın göstəricisi idi. Bütövlükdə, sərgidə 90 yerli müəssisənin 129 növdə və 652 çeşiddə məhsulu nümayiş etdirilib. Göründüyü kimi, həyata keçirilən məqsədyönlü tədbirlər istehsal olunan məhsulların sayının və çeşidlərinin artmasına səbəb olub, 1995-ci ildən ötən dövrdə muxtar respublikada 812 yeni istehsal müəssisəsi yaradılıb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 ildə Ümumi Daxili Məhsul istehsalı 10,3 dəfə, sənaye məhsulunun həcmi 34,9 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,6 dəfə, əsas kapitala yönəldilən investisiyalar 11,5 dəfə, xarici ticarət dövriyyəsi 13,2 dəfə, o cümlədən ixracın həcmi 78 dəfə artıb. Təkcə 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, 3805 yeni iş yeri açılıb.

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda müşavirə uşaqların, yeniyetmələrin və gənclərin sağlamlığının qorunması və idmanın inkişafı üçün vacib məsələlərin gündəmə gətirilməsi ilə yadda qaldı. Azərbaycanın beynəlxalq idman yarışlarının təşkilatçısı olan bir ölkəyə çevrildiyi, ölkəmizin bu il ilk dəfə keçiriləcək Birinci Avropa Oyunlarına ev sahibliyi etməyə hazırlaşdığı bir vaxtda bu müşavirədə qarşıya qoyulan vəzifələrin aktuallığı daha çox diqqəti cəlb edir.

Bütün məsələlərdə ulu öndər Heydər Əliyevin siyasi xəttinə əsaslanan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müşavirədə deyib: ***"Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində digər sahələr kimi, idman da inkişaf etmiş, möhkəm maddi-texniki bazaya əsaslanan idman infrastrukturu formalaşmışdır. Hər bir insanın şəxsi həyatında və cəmiyyətdə idmanın mühüm rola malik olduğunu bildirən ümummilli liderimiz deyirdi: "İdmanı, bədən tərbiyəsini ümumxalq hərəkatına çevirməliyik. Ona nail olmalıyıq ki, bədən tərbiyəsi və idman Azərbaycanın hər bir gənci, hər bir vətəndaşı üçün ənənə olsun. Azərbaycan gənci bir gün də bədən tərbiyəsi və idmandan kənarda qalmasın. Bu, xalqımızın gələcəyi üçün lazımdır. Müstəqil Azərbaycanı gələcəkdə də yaşatmaq, onu daha da möhkəmləndirmək, dünya miqyasında böyük dövlətə çevirmək üçün gənclərimiz bu gündən hazırlaşmalıdırlar. Həm zehni, mənəvi cəhətdən, həm də fiziki cəhətdən hazırlaşmalıdırlar".***

Bu gün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı ilə bağlı ardıcıl tədbirlər görülür. Müşavirədə qeyd olunduğu kimi, son 20 il muxtar respublikanın bədən tərbiyəsi və idman tarixində mühüm mərhələ təşkil edir. Bu dövr ərzində muxtar respublikada idmanın maddi-texniki bazası xeyli möhkəmləndirilib. Müasir idman infrastrukturunun formalaşdırılması qədim diyarımızda beynəlxalq yarışların keçirilməsinə də şərait yaradıb. 2014-cü ildə muxtar respublika idmançıları dünya çempionatlarında 2, Avropa çempionatlarında 4, beynəlxalq turnirlərdə 10, Azərbaycan birinciliklərində 56 medal qazanıblar.

Muxtar respublikada bu gün 2 olimpiya-idman kompleksinin, 2 üzgüçülük mərkəzinin, 1 şahmat mərkəzinin, 6 uşaq-gənclər şahmat məktəbinin, 9 uşaq-gənclər idman məktəbinin, Stend və Sportinq Atıcılıq Mərkəzinin, eləcə də stadionların, idman zallarının və sadə idman qurğularının, 12 idman federasiyasının fəaliyyət göstərməsi də Naxçıvanda idmanın inkişafı üçün əsaslı zəmin yaradır. Son illər 40-a yaxın idman obyektinin istifadəyə verilməsi, ümumtəhsil məktəblərində ən müasir standartlara cavab verən idman zallarının yaradılması isə bu sahəyə göstərilən diqqətin nəticəsidir.

Müşavirədə idmanın inkişafı ilə bağlı Ali Məclisin Sədri konkret tapşırıqlar verib, keçirilən yarışların əhali arasında idmanın təbliği məqsədilə kütləvi informasiya vasitələrində geniş işıqlandırılmasının vacibliyini qeyd edib. Bildirilib ki, Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları idman növləri üzrə məşqçi fəaliyyətinə və hazırlanmasına peşəkar mütəxəssisləri cəlb etməlidirlər. "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu muxtar respublika birinciliyində və digər futbol komandaları ilə yoldaşlıq görüşü təşkil etməklə fəaliyyətini davam etdirməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirləri şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndləri də əhatə edib. Yeni kənd və xidmət mərkəzlərinin, abad yolların, məktəb binalarının və səhiyyə müəssisələrinin tikintisi müasir Naxçıvanın inkişaf göstəricisinə çevrilib. Bu həm də əhalinin rifah halının yaxşılaşmasına göstərilən qayğının təzahürüdür.

Ötən ayın 5-də Culfa rayonunun Bənəniyar kəndi də muxtar respublikanın şəhərləşən kəndləri sırasına qoşulub. Kənddə həyata keçirilən kompleks quruculuq işləri, yaradılan müasir infrastruktur, rahat iş və xidmət şəraiti sakinlərin firavan yaşayışını təmin edəcəkdir. Bənəniyar kənd tam orta məktəbində müasir tədris şəraitinin yaradılması, Uşaq musiqi məktəbinin yeni binasının istifadəyə verilməsi, yeni xidmət mərkəzinin fəaliyyətə başlaması, həkim ambulatoriyasında yenidənqurma işlərinin aparılması, nəhayət, burada da dövlət qurumları üçün nümunəvi iş şəraitinin yaradılması kənddə mövcud olan bir sıra problemlərin kompleks həllinə imkan verib.

Kənd infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər Şərur rayonunu da əhatə edib. Rayonun Kürkənd yaşayış məntəqəsində yeni sosial obyektlərin inşa olunması, nəticədə, Kürkənd tam orta məktəbinin yeni binada fəaliyyət göstərməsi, burada yeni kənd mərkəzinin istifadəyə verilməsi, yeni xidmət mərkəzinin fəaliyyətə başlaması bu yaşayış məntəqəsinin simasını tamamilə dəyişib.

Yol rahatlıq, mədəniyyət, yüksək rifah deməkdir. Kürkənddə bu məsələ də diqqətdə saxlanılıb. Kəndi rayon mərkəzi ilə birləşdirən 4,5 kilometrlik yolun genişləndirilərək bura asfalt örtük salınması əhalinin gediş-gəlişini xeyli asanlaşdırıb. Yolboyu 2 selötürücü, 47 su keçidi tikilib, 1280 metrlik beton kanal, 158 metr daş hasar və 300 metr metal çəpər çəkilib. Həmçinin müvafiq yerlərdə piyada keçidləri və digər yol hərəkət nişanları quraşdırılıb, avtomobillərin və piyadaların rahat hərəkəti təmin olunub.

Bu faktdır ki, təhsildə müasir texnologiyalara əsaslanan istənilən ölkələr və ya təhsil müəssisələri yüksək səviyyəli gənc kadrların yetişməsi istiqamətində daim uğurlar qazanırlar. Muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilməsi burada müasir dövrün tələblərinə cavab verən intellektual potensialın formalaşmasına şərait yaradıb. Fevralın 24-də Naxçıvan Dövlət Universitetində "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsinin açılışı da bu baxımdan əlamətdar hadisə kimi yadda qalıb.

Muxtar respublikada Xocalı faciəsi qurbanlarının xatirəsi daim əziz tutulur. Fevralın 26-da Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri soyqırımı abidəsinin önünə gül qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edib.

Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Görülən bu işlərin davamı kimi fevralın 27-də Babək Rayon Rabitə İdarəsinin yeni binası istifadəyə verilib. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada informasiya-kommunikasiya texnologiyalarının ən son yenilikləri tətbiq olunub, müasir elektron avtomat telefon stansiyası, yeni nəsil rabitə və poçt avadanlıqları quraşdırılıb. Bu da abunəçilərə çoxfunksiyalı rabitə xidmətlərindən, o cümlədən telefon, videotelefon, IP televiziya, genişzolaqlı internetdən istifadəyə imkan verəcəkdir.

"Yeni texnologiyaların tətbiqi, rabitə və poçt xidmətinin səviyyəsinin yüksəldilməsi zamanın tələbidir", – deyən Ali Məclis Sədrinin göstəriş və tapşırıqlarının vaxtında yerinə yetirilməsi sayəsində bu gün muxtar respublikada qeyd olunan sahədə ən müasir texnologiyalardan istifadə olunur. Babək Rayon Rabitə İdarəsinin yeni binasının üçüncü mərtəbəsində tikintisi başa çatdırılan Sədərək-Ordubad alternativ fiber-optik kabel magistralının təqdimatı olub.

Ali Məclisin Sədri Babək rayon telekommunikasiya şəbəkəsini alternativ fiber-optik kabel magistralına birləşdirən sistemi işə salıb, muxtar respublikanın fiber-optik kabel şəbəkələrinin yerləşmə sxeminə və bununla bağlı hazırlanmış filmə baxıb.

Tikintisinə 2005-ci ildən başlanılan fiber-optik kabel şəbəkəsi muxtar respublika ərazisinin 94 faizini əhatə edir. Hazırda muxtar respublikada istismar edilən fiber-optik kabel xətlərinin uzunluğu 1136 kilometrdən artıqdır. Bu da muxtar respublikanın həm daxili, həm də xarici telekommunikasiya əlaqələrinin kəsintisiz həyata keçirilməsinə imkan verir. Uzunluğu 242 kilometr olan Sədərək-Ordubad fiber-optik kabel magistralına, ilkin olaraq, Naxçıvan şəhəri və Babək rayonu qoşulub. Növbəti mərhələdə digər yaşayış məntəqələri də bu xəttə birləşdiriləcək və bununla da, Naxçıvanın telekommunikasiya əlaqələrinin alternativliyi tam təmin olunacaqdır.

Fiber-optik kabel şəbəkəsi televiziya siqnallarının verici stansiyalara çatdırılmasına və rəqəmsal yayımın tətbiqinə də imkan verir. Artıq muxtar respublikada rəqəmsal yayıma keçid tamamilə başa çatdırılıb. Hazırda 6 güclü və 43 azgüclü verici vasitəsilə bütün yaşayış məntəqələrində televiziyanın rəqəmsal yayımı təşkil olunub. Bu ilin yanvar ayında isə muxtar respublika ərazisində 67 televiziya kanalının DVB-T2 standartında yayımına başlanılıb, Naxçıvan Dövlət Televiziyasının HD formatda yayımı təmin edilib.

Görülən bu işlər həm bu günümüz, həm də gələcəyimiz üçün çox mühüm məsələlərin həllinə geniş imkanlar açır, milli strateji inkişafımızı stimullaşdırır, müasir dünyaya inteqrasiyanı yeni mərhələyə yüksəldir. Bütün bunları nəzərə alaraq inamla deyə bilərik ki, bu gün xüsusən gənc nəslin istər intellektual, istərsə də fiziki inkişafı üçün muxtar respublikada hər cür şərait yaradılıb. Bugünkü gənclik 1990-cı illərin əvvəllərindəki kimi çörək dərdi çəkmir, zəif işığı ilə gözləri yoran çıraq işığında dərslərini hazırlamır, Naxçıvanın işğalı təhlükəsini düşünmür. Bugünkü uşaqlar və gənclər uçulmuş-dağılmış, rütubətli və qaranlıq təhsil ocaqlarında deyil, gözəlliyi ilə gözoxşayan və hər cür şəraiti olan binalarda təhsil alırlar.

***Bəli, bu gün muxtar respublikada insanlar Avropa ölkələrinin əhalisinin həyat şəraitindən heç də geri qalmayan bir şəraitdə yaşayırlar. Çünki bu gün bizim Vətənini, xalqını sevən, onun uğrunda fədakarlıqla çalışan, ən əsası isə insanlara doğru yolu, inkişaf istiqamətini dəqiqliklə göstərən rəhbərimiz var. Bizim üzərimizə düşən əsas vəzifə isə yaradılan şəraitdən düzgün istifadə etmək, göstərilən yolla qətiyyətlə irəliləmək, dövlətə, dövlətçiliyimizə sədaqətli vətəndaş olmaqdır.***

**Rauf ƏLİYEV**

*Təhsil millətin gələcəyidir*

# Naxçıvan məktəbləri ön sıralarda yer tutub

## Muxtar respublikada təhsilə qayğı öz bəhrələrini verir



***20 ilə yaxındır ki, muxtar respublikada əsas istiqamət götürülən sahələrdən biri təhsildir. 19 il bundan əvvəl muxtar respublikada müasir tələblərə cavab verən məktəb binaları barmaqla sayılacaq qədər az idi. İndi isə təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, ən müasir məktəb binaları tikilir, onların maddi-texniki bazaları gücləndirilir, yeni informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. Məktəblilər pulsuz dərsliklərlə təmin olunurlar; tədris ocaqlarında fəaliyyət göstərən kitabxanalar da eləcə. Təkcə bir faktı qeyd edək ki, son 10 ildə muxtar respublikada 160-dək məktəb binası tikilərək və ya əsaslı təmir edilərək istifadəyə verilib. Ümumtəhsil məktəblərinə 3700 kompüter dəsti verilib, hər 12 şagird bir kompüterlə təmin olunub. Təhsil müəssisələrindəki kompüterlərin 84 faizi internetə qoşulub, təhsil ocaqlarında 600-ə yaxın elektron lövhə quraşdırılıb. Bütün bunların nəticəsidir ki, təhsildə keyfiyyət göstəricisi ilbəil artır. Əgər 2013-cü ildə tələbə adını qazananların 312-si 500-dən yuxarı bal toplayıbsa, 2014-cü ildə 347 abituriyent 500-700 intervalında yüksək nəticə göstərib. Müqayisə üçün qeyd etmək olar ki, 1995-1996-cı tədris ilində bu göstərici 5 nəfər olub.***

***Naxçıvan Şəhər və Şahbuz Rayon Təhsil şöbələri ən yüksək nəticə göstərən ilk 15 təhsil şöbəsi sırasına daxil olub***

Ümumiyyətlə, təhsil müəssisələrinə göstərilən dövlət qayğısının nəticəsidir ki, son illər ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu həm kəmiyyət, həm də keyfiyyət baxımından diqqəti cəlb edir. Bu, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən nəşr olunan 2014-2015-ci tədris ili üçün tələbə qəbulu nəticələrinin elmi-statistik təhlilində də öz əksini tapıb. Bölgələr üzrə 2014-cü il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlilindən məlum olur ki, muxtar respublikanın şəhər və rayon ümumtəhsil məktəblərindən tələbə qəbulunda xeyli nailiyyətlər əldə olunub. Ən başlıcası, abituriyentlərin qəbul imtahanlarında topladıqları orta bal göstəriciləri respublika üzrə orta göstəricidən Naxçıvan şəhəri üzrə 12,2 faiz, Şahbuz rayonu üzrə 8 faiz yuxarı olub, Culfa və Ordubad rayonlarında isə həmin göstəriciyə bərabərləşib.

Abituriyentlərin göstəricilərinin bal intervalları üzrə paylanmasına nəzər saldıqda görürük ki, əlaçı abituriyentlərin 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq etmələri sahəsində faiz etibarilə artım əldə olunub. Belə ki, 2014-cü ildə əlaçı abituriyentlərin Naxçıvan şəhəri üzrə 59,63 faizi, Culfa rayonu üzrə 58,33 faizi, Babək rayonu üzrə 55,81 faizi, Şahbuz rayonu üzrə 51,52 faizi, Şərur rayonunda isə 50,85 faizi 500-dən yuxarı bal toplayaraq məktəb nailiyyətlərini təsdiq ediblər.

Qeyd edək ki, həmin topluda ayrı-ayrı fənlər üzrə rayon və şəhər təhsil şöbələrinin əhatə etdiyi ümumtəhsil məktəblərinin göstəricilərinin Azərbaycan Respublikası üzrə ümumi göstəricidən yüksək olduğu və təhsil şöbələrinin respublika üzrə ilk onluğa daxil olduğu qeyd edilib. Belə ki, Naxçıvan Şəhər Təhsil Şöbəsi "ədəbiyyat", "riyaziyyat", "tarix", "coğrafiya", "ingilis dili", Babək rayonu "tarix", Ordubad rayonu "riyaziyyat", "coğrafiya", Culfa rayonu "fizika", "kimya", Şahbuz rayonu isə "Azərbaycan dili" fənləri üzrə göstəricilərə görə, respublikada ilk onluğa daxil olublar.

Ümumilikdə, təhsil şöbələrinin 2014-cü il məzunlarının imtahan fənləri üzrə, bütövlükdə, göstəricilərinə görə, Naxçıvan Şəhər və Şahbuz Rayon Təhsil şöbələri Azərbaycan Respublikasında ən yüksək nəticə göstərən ilk 15 təhsil şöbəsi sırasına daxil olublar.

Bununla yanaşı, Heydər Əliyev adına tam orta məktəb "coğrafiya" fənni üzrə, Naxçıvan Qarnizonunun tam orta məktəbi "tarix" və "ədəbiyyat" fənləri üzrə, Qıvraq qəsəbə və Didivar kənd tam orta məktəbləri isə "fransız dili" fənni üzrə respublikada ayrı-ayrı fənlərdən yüksək nəticə göstərmiş ilk on beş məktəb sırasında qərar tutublar.

***Ən yaxşı məktəblər sırasında olan təhsil ocaqlarımız çoxluq təşkil edir***

Ötən il abituriyentlərin sayına nəzərən yüksək balların faizi daha çox olduğuna görə Heydər Əliyev adına tam orta məktəb, Naxçıvan Qarnizonunun tam orta məktəbi, Şərur rayon Tumaslı, Babək rayon Didivar və Culfa rayon Bənəniyar kənd tam orta məktəbləri yüksək balların faizi çox olan ilk 48 məktəb sırasına daxil olublar.

Azərbaycan Respublikası üzrə yaxşı məktəblər sırasında yer alan məktəblərimizin sayı da artıb. Belə ki, Heydər Əliyev adına tam orta məktəb, Naxçıvan Qızlar Liseyi, Naxçıvan şəhər 17 nömrəli, Şərur rayonu üzrə Yengicə, Axura, Muğanlı, Muğancıq-Mehrab, Şərur şəhər 2 nömrəli, Babək rayonu üzrə Qoşadizə, Çeşməbasar, Ordubad rayonu üzrə Vələver, Aşağı Əylis, Biləv, Ordubad şəhər 1 nömrəli, Culfa rayonu üzrə Şurud, Əlincə, Milax, Xanəgah, Şahbuz rayonu üzrə Nursu, Qızıl Qışlaq, Kükü, Şahbuz şəhər 1 və 2 nömrəli, Kəngərli rayonu üzrə Qıvraq qəsəbə tam orta məktəbləri yaxşı məktəblər sırasına daxil ediliblər.

2014-cü il məzunlarının ali təhsil müəssisələrinə qəbulolma göstəricilərinə görə, Naxçıvan şəhəri Gəncə, Sumqayıt və Bakı şəhərlərindən önə keçib və göstərici 61,15 faiz olub. Eyni zamanda ali məktəblərə qəbulolma faizinə görə, Ordubad rayonu ən yüksək nəticə göstərərək respublika birincisi olub.

Respublikanın böyük şəhərlərini təmsil edən abituriyentlərin ümumi qəbulolma göstəricilərinə görə, Naxçıvan şəhəri respublika üzrə üçüncü yerdə, həmin abituriyentlərin ali məktəblərin ödənişsiz ixtisaslarına qəbulolma göstəricilərinə görə isə Sumqayıt şəhərindən sonra ikinci yerdə dayanır.

***Məzunların əksəriyyəti muxtar respublikada yerləşən ali təhsil müəssisələrində təhsil almağa üstünlük verib***

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəşr etdirdiyi elmi-statistik topluda 2014-cü ildə ali təhsil müəssisələrinə qəbul olunan abituriyentlərin seçimlərinin zonal tərkibi də müəyyənləşdirilib. Muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrində yaradılan şəraitin yüksək olmasının nəticəsidir ki, məzunlarımızın əksəriyyəti muxtar respublikada yerləşən ali təhsil müəssisələrində təhsil almağa üstünlük veriblər. Belə ki, 2014-cü ildə Naxçıvan Dövlət Universitetinə qəbul olunmuş 937 tələbənin 856 nəfəri (91,36 faizi), Naxçıvan Müəllimlər İnstitutuna qəbul olunmuş 262 tələbənin 230 nəfəri (87,79 faizi) və "Naxçıvan" Universitetinə qəbul olunmuş 253 tələbənin 207 nəfəri (81,82 faizi) Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin məzunlarıdır.

2013-2014-cü tədris ilində tələbə adını qazanan məzunlarımızdan 40 nəfəri xüsusi təyinatlı ali məktəblərə qəbul olunub. Eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 218 nəfər ölkənin müxtəlif ali hərbi məktəblərin tələbələri olublar. Beləliklə, 2014-cü ildə ali hərbi məktəblərə və Azərbaycan Respublikasının digər ali məktəblərinə qəbul olunan məzunlarımızın sayı 1943 nəfərdir ki, bu da ali təhsil müəssisələrinə sənəd verən məzunların 58,27 faizini təşkil edir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəşr etdirdiyi elmi-statistik təhlildə buraxılış imtahanlarının nəticələrinə nəzər saldıqda Naxçıvan şəhər, Ordubad və Şahbuz rayon ümumtəhsil məktəblərinin məzunlarının göstəricilərinin Azərbaycan Respublikası üzrə göstəricilərdən xeyli yüksək olduğunu görürük. Belə ki, buraxılış imtahanlarının nəticələrinə görə, Ordubad rayon məzunlarının göstəriciləri respublika göstəricisindən 5,77 faiz, Naxçıvan şəhərinin məzunlarının göstəriciləri 19,06 faiz, Şahbuz rayonu məzunlarının göstəriciləri isə 20,56 faiz yüksəkdir. Bu isə Azərbaycan Respublikası üzrə ən yüksək nəticələrdəndir. Eyni zamanda qeyd etmək lazımdır ki, buraxılış imtahanlarında Şahbuz rayonu məzunlarının "Azərbaycan dili" fənnindən 32,38 faizi, "riyaziyyat" fənnindən 30 faizi, Naxçıvan şəhəri məzunlarının "Azərbaycan dili" fənnindən 28,92 faizi, "riyaziyyat" fənnindən 28,68 faizi, Ordubad rayon məzunlarının isə hər iki fənn üzrə 23,21 faizi "5" qiymət alıb.

*Görkəmli diplomat və ictimai-siyasi xadim Behbud ağa Şahtaxtinski yazırdı: "Yüksək təhsilə, mədəniyyətə və elmi gücə malik olanlar həmişə qalib gələrlər". Sevindiricidir ki, bu gün muxtar respublikada yüksək biliyə malik bir gənclik yetişir. Təbii ki, bütün bunlar muxtar respublikada təhsilə göstərilən qayğının bəhrələridir. Heç şübhə yoxdur ki, gələcəkdə bu uğurların sayı daha çox olacaq.*

**Sara ƏZİMOVA**

***İnformasiya cəmiyyəti anlayışı 1960-cı illərin əvvəllərində Yaponiyada sosial elmlərin tədrisində istifadə olunmağa başlayıb və artıq 50 ildən çoxdur ki, elmi-nəzəri tədqiqat obyektinə çevrilib. Cəmiyyətin inkişaf tarixində üçüncü qlobal sosial-texniki inqilab kimi qeyd olunan müasir informasiya-kommunikasiya texnologiyaları (İKT) informasiyanın əldə edilməsi, emalı, saxlanması və ötürülməsi məqsədilə proqram-texniki vəsaitlərin, istehsalat proseslərinin və metodlarının məcmusudur. İnformasiya proseslərinə isə aiddir: informasiyanın axtarışı, seçimi, yaradılması, saxlanması, ötürülməsi, kodlaşdırılması, emalı və qorunması.***

*Elektron cəmiyyət*

# İnformasiya cəmiyyəti və bu cəmiyyətin faydaları

İnformasiya cəmiyyəti, başqa sözlə desək, cəmiyyətin informasiyalaşdırılması ölkənin intellektual potensialından səmərəli istifadə edərək hərtərəfli inkişafın təmin edilməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin aradan qaldırılması, cəmiyyətdə aşkarlıq və şəffaflığın bərqərar edilməsi və bütövlükdə, ictimai həyatın demokratikləşməsi deməkdir. Azərbaycanda informasiyalaşmış cəmiyyətin əsas xüsusiyyətlərinə qlobal informasiya mühitinin yaradılması, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (məsafədən təhsilalma, elektron ticarət, tele iş, elektron hökumət və sair) meydana gəlməsi, informasiya və bilik bazarının yaradılması, müxtəlif səviyyədə informasiya mübadiləsi sistemlərinin inkişafı, vətəndaş və təşkilatların istənilən məlumatı almaq, onu yaymaq və ondan istifadə etmək kimi hüquqlarının tam təmin edilməsi aiddir.

İnformasiya bolluğunun yaradılması və bu prosesin köməyi ilə həm bəşəriyyətin qarşısında duran problemlərin həllinə nail olmaq, həm də cəmiyyətin inkişafını təmin etmək mümkündür. Yəni informasiya cəmiyyəti elə bir cəmiyyətdir ki, burada əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın, ən əsası isə onun ali forması olan biliyin istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olur. Son dövrlərdə Naxçıvan Muxtar Respublikasında informasiya texnologiyalarının kütləviləşməsi, bu sahənin inkişafı məqsədilə nəzərəçarpacaq addımlar atılıb, ciddi dəstək və qayğı nəticəsində bir çox uğurlar əldə olunub, informasiya-kommunikasiya texnologiyalarının inkişafı yeni mərhələyə qədəm qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində və Gənclər Mərkəzində elektron kitabxanaların, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidmətinin yaradılması dediklərimizə əyani sübutdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərin informasiya-kommunikasiya texnologiyalarından istifadəsi ilə bağlı demişdir: ***"Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi işinin və informasiya mübadiləsinin çevik forması olan sosial şəbəkələrin getdikcə genişlənməsi gənclər qarşısında əlavə fəaliyyət sahəsi açmışdır. Bizim üçün xoşdur ki, muxtar respublika gəncləri bu sahəyə nüfuz etməyi bacarmış, sosial şəbəkələrdə fəallığı xeyli artırmışlar. Gənclərimiz sosial şəbəkələrdən, əsasən, təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaratmağa çalışırlar".***

Bəli, müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir və bu prosesin zəruriliyi indiki qloballaşma dövründə daha çox hiss olunur. Bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır. Son zamanlar ölkəmizdə dövlət orqanları, biznes qurumları və vətəndaşların qarşılıqlı fəaliyyətlərində İKT-nin imkanlarından geniş şəkildə istifadə olunur. Mühüm idarəetmə strukturları və xüsusi dövlət xidmətləri göstərən qurumlar olan dövlət orqanları şəbəkəsində inzibati idarəetmənin səmərəliliyini yüksəldən, ictimai prosesləri tənzimləyən, büdcə vəsaitlərini səmərəli məsrəf edən və dövlət aparatı xərclərini azaldan bir sistem kimi İKT-nin əhəmiyyəti böyükdür. Cəmiyyətin informasiyalaşdırılması prosesi sənaye cəmiyyətinin informasiya cəmiyyətinə keçməsini də təmin edir. Bu proses cəmiyyətin hər bir üzvünə öz tələbatına uyğun informasiya almaq imkanı verir. Son dövrlərə kimi "informasiyalaşdırma" sözü əvəzinə "kompüterləşdirmə" sözündən istifadə olunurdu. Lakin "kompüterləşdirmə" sözünün mənası kompüter texnikasının inkişafı və tətbiqi deməkdir. Cəmiyyətin informasiyalaşdırılması isə kompüterləşdirməyə nisbətən daha geniş anlayışdır. Belə ki, bu gün texniki vasitələr deyil, sosial-texniki prosesin məqsəd və mahiyyəti daha önəmlidir. Cəmiyyətin informasiyalaşdırılmasının əsas məqsədi aşağıdakılardır:

- *informasiyalaşdırma prosesinin humanistləşdirilməsi;*
- *şüurun inkişafını məişət inkişafından çox qabağa aparmaq;*
- *maddi və əmək ehtiyatlarına qənaət etmək;*
- *insan sivilizasiyasının davamı, inkişafı üçün baş verə biləcək fəlakətlərin qarşısını almaq;*
- *hər bir insanın vahid informasiya fəzasına daxil olub cəmiyyətin və özünün inkişafı üçün bu ehtiyatlardan istifadə etməsinə şərait yaratmaq.*

Pulun informasiya-kredit kartları, pul banklarının informasiya bankları ilə əvəz edilməsi cəmiyyətdə oğurluğun və neqativ halların qarşısını tamamilə alır. İnformasiyalaşdırma elmin bütün sahələrinin – astronomiyanın, kimyanın, biologiyanın, tibbin, sosiologiyanın, texnikanın, hüquqi sahələrin inkişafına böyük təsir göstərir və cəmiyyətin inkişafında əsas qüvvə rolunu oynamaqla onun təhlükəsizliyində də böyük əhəmiyyət daşıyır.

Cəmiyyətin informasiyalaşması həm də elektron ödəmələrdə fəallıq nümayiş edilməsi ilə ölçülür. Bu gün ölkəmizdə, eləcə də doğma Naxçıvanımızda informasiya cəmiyyətinin bu cəhətinin kütləviləşməsinə xüsusilə diqqət göstərilir. Bunun üçün muxtar respublikada "elektron hökumət" portalı fəaliyyətə başlayıb. Bu fəaliyyətin xidmətlərindən istifadə etməklə informasiya cəmiyyətinin formalaşdırılmasına töhfələr vermiş oluruq.

*İKT dövrün tələbidir, bu yolla ölkəmizi müasir dünyada daha yaxşı təmsil etmək imkanı əldə edə bilərik. Bunun üçün gəlin birlikdə çalışaq, informasiyalaşaq...*

**Nərgiz İSMAYILOVA**

İdman

# Üzgüçülüyə maraq artır

***Qədim Yunanıstanda belə bir deyim olub: "Oxumağı və üzməyi bacarmayan şəxs həyata ən az uyğunlaşmış insandır". Üzgüçülük son iki əsrə kimi idman növü hesab edilməyib. Yalnız XIX əsrin ikinci yarısından sonra bəzi ölkələrdə bu sahə idman növü kimi tanınmağa başlamış, turnirlər, yarışlar keçirilmiş və insanlar arasında sevilmişdir.***



bu sahəyə istiqamətlənmələri üçün yarışlar təşkil olunur. Uzun müddətdir, Naxçıvan şəhərində fəaliyyət göstərən Üzgüçülük Mərkəzi muxtar respublikada bir çox üzgüçü yetişdirməyə müvəffəq olub. İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbovla söhbətimizdə ilk olaraq mərkəzin geridə qoyduğumuz ildə gördüyü işlərdən danışdıq: "Artıq 10 ildən çoxdur ki, mərkəz idmançıların, Naxçıvan sakinlərinin ixtiyarına verilib. Ötən ilin yay fəslində mərkəzə müraciət edənlərin sayı həddindən çox olub.





***Hansı yaşda bu növə başlamaq lazımdır?***

Ən əvvəl qeyd edək ki, yaxşı üzgüçü olmaq üçün ahəngdar fiziki inkişafa nail olmaq vacibdir. Təkcə suda deyil, quruda da müntəzəm olaraq fiziki məşqlərlə məşğul olmaq insanı peşəkar üzgüçü edə bilər. Ümumiyyətlə, üzgüçülüyün dörd əsas üsulu var: sərbəst üsul, arxası üstə, brass və delfin (batterfilay).

Bunlar arasında ən geniş yayılanı – sürətlisi sərbəst üsuldur. Sərbəst üsulda üzgüçü növbəli şəkildə əlləri ilə suda üfüqi istiqamətdə avar çəkməklə və ayaqları ilə suya şaquli istiqamətdə elastik zərbələr vurmaqla irəliləyir. Başını yana çevirərkən üzgüçü başını çevirdiyi tərəfdəki əli ilə avarçəkməni bitirdiyi anda dərindən nəfəs alır, sonra üzünü suya salıb nəfəsini buraxır. Üzgüçülüyün sürətcə ikinci yerdə olan üsulu delfin üsuludur. Sərbəst üsuldan fərqli olaraq, delfin üsulunda hər iki əllə eyni vaxtda avar çəkilir və bu zaman ayaq iki dəfə dalğavari hərəkət etdirilir.

Adətən, insanlar suda boğulmamaq üçün brass növündən istifadə edirlər. Bu üsulun hərəkətləri qurbağanın suda üzərkən etdiyi hərəkətlərə bənzəyir. 7-8 yaşına qədər olan uşaq özünü artıq suyun üzərində saxlamağı bacarırsa, bu yaşda üzgüçülüyün bütün üsullarının texnikasını öyrətmək daha asandır. 9-10 yaşlarında isə bu növlərdən hər hansı birində daha yaxşı bacarıq özünü göstərir. Arxası üstə isə insan üzərkən sürət nisbətən az olur, əllərin və ayaqların hərəkət sxemi isə sərbəst üsulda olduğu kimidir.

Üzgüçülüklə məşğul olmaq istəyən uşaqların bu idman növünə ən geci 11-12 yaşlarından başlamaları məsləhətdir. Təsadüfi deyil ki, dünya praktikasında artıq 14 yaşında üzgüçülük üzrə idman ustası olanlar belə, var. Üzmək estetik baxımdan bədənin düzgün inkişaf etməsinə zəmin yaradır, qolları, çiyinləri üzərkən yuxarı qaldırmaq sinə nahiyəsini inkişaf etdirir.

Üzgüçülükdə müəyyən şərtlər var ki, onlara əməl etmək, üzmədən öncə və sonra müxtəlif idman hərəkətləri etmək vacibdir. Aparılan araşdırmalardan sonra məlum olub ki, vücudun su ilə təmasından öncə estetik hərəkətlər edilməli, əzələlər gərilməli, bütün hərəkətlər asandan çətinə doğru aparılmalı, otaq temperaturuna fikir verilməlidir. Xüsusilə sonuncu amil vacib şərtdir: çox isti otaqda hərəkət etmək olmaz, ideal temperatur müsbət 18-25 dərəcə olmalıdır. Üzgüçülüyün ən əsas nüansı isə idmandan sonra qarşılaşa biləcəyimiz problemlərdir: spazmalar, tutulmalar üzdükdən sonra baş verə biləcək hadisələrdir. Bunun qarşısını almaq üçünsə bədəni soyuqdan, həmçinin istidən qorumaq vacibdir. Hətta dincələrkən belə, vücudun simmetrik, estetik və düzgün duruşuna diqqət etmək lazımdır; çünki üzərkən istinmiş vücud soyuyarkən hansı formadadırsa, elə də formalaşır.

***Naxçıvanda müasir üzgüçülük mərkəzləri fəaliyyət göstərir***

Naxçıvan Muxtar Respublikasında digər idman növləri kimi, üzgüçülüyün də inkişafına xüsusi diqqət yetirilir. Artıq muxtar respublikanın şəhər və rayonlarında tikilən idman komplekslərində yaradılan üzgüçülük mərkəzlərində üzgüçülük dərsləri aparılır, gənclərin

Təbii ki, bizə müraciət edən və üzgüçülüklə məşğul olmağa gələn insanların rahatlığını təmin etmək üçün mərkəz tərəfindən müəyyən işlər görülür. Bir məqamı da vurğulamalıyam ki, müraciət edənlərin əksəriyyətini qadınlar təşkil edirdi. Bunun üçün qadınlar qrupu fəaliyyətə başlayıb və onlara üzgüçülüyün sirlərini öyrətmək üçün bir qadın məşqçi-müəllim mərkəzdə fəaliyyət göstərir. Eyni zamanda kişilər qrupu da fəaliyyət göstərir ki, ilin hər fəslində bura müraciət edənlərin sayı artmaqdadır".

Ramin Talıbov Üzgüçülük Mərkəzinə gələn gənclərin sayını artırmaq və bu növün kütləvi hal alması üçün cari ildə də planlı şəkildə tədbirlər keçirəcəklərini bildirdi: "Məqsədimiz bu növün muxtar respublikada daha da inkişafına nail olmaqdır. Çünki üzgüçülük digər idman növlərindən fərqli olaraq, insanı daha gümrah saxlayır, vücudun formada qalmasına yardımçı olur. Adətən, aprel ayından etibarən müraciət edənlərin sayı çoxalır. Buna görə bu il turnirlərin keçirilməsinə aprel ayından başlamağı planlaşdırırıq. Həmçinin mərkəzdə maarifləndirici tədbirlər keçirmək, uşaq və yeniyetmələrə üzgüçülüyün faydaları haqda məlumatlar verməyi də unutmamışıq".

Sonda kompleksin direktoru yaradılan bu şəraitə görə dövlətimizə minnətdarlığını bildirərək dedi: "İnsanların mərkəzə axın etməsinin səbəbi burda yaradılan yüksək şəraitlə əlaqədardır. Bu uğurların hamısı Naxçıvan Muxtar Respublikasında idmana göstərilən qayğının nəticəsidir. Bizə isə yaradılan şəraitdən maksimum yararlanmaq qalır".

## Ölkə birinciliyində daha bir uğur

Ötən həftə Bakıda keçirilən Azərbaycan Çoxmübarizəli İdman Döyüş Növləri Federasiyasının ölkə birinciliyinə yekun vurulub. Hövsan Olimpiya-İdman Kompleksində keçirilən yarışda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançıları da mübarizə aparıblar. İki gün davam edən birincilikdə muxtar respublika idmançısı Yunis Hüseynəliyev uğurlu çıxışı ilə yadda qalıb. Belə ki, 90 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız yalnız həlledici görüşdə məğlubiyyətlə üzləşib və birinciliyi gümüş medalla başa vurub.

Yarışın sonunda idmançımıza təşkilatçılar tərəfindən diplom və hədiyyə təqdim olunub.

*Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ağırlıqqaldırma üzrə klubun yetirməsi Tərmenxan Babayev ötən həftə Bakı şəhərində təşkil olunan yeniyetmələr arasında ağırlıqqaldırma üzrə ölkə birinciliyində iştirak edib.*

## İdmançımız Avropa çempionatına vəsiqə qazandı

62 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız birdən qaldırmada 85 kq, təkanla qaldırmada 102 kq və iki hərəkətin cəminə görə 187 kq qaldıraraq 14 rəqibini geridə qoymağı bacarıb və birinciliyin qalibi olub.

Bu, idmançımızın ilk uğuru deyil. Belə ki, Tərmenxan Babayev öz yaş qrupunda Azərbaycan çempionatında ən yüksək nəticəni göstərən və rekorda imza atan ağır atletdir. Məşqçi Şəfi Hüseynovun rəhbərliyi ilə məşqlərini davam etdirən 14 yaşlı idmançımız aprel ayının 22-də Türkiyənin Konya şəhərində keçiriləcək beynəlxalq turnirdə mübarizə aparacaq. Ölkə çempionu adını qazanan Tərmenxan Babayev avqust ayında isə İsveçdə keçiriləcək Avropa çempionatında Azərbaycanı təmsil edəcək.

**Ceyhun MƏMMƏDOV**

***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib.***

# Milli Teatr Günü qeyd olunub



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov çıxış edərək Azərbaycan teatrının keçdiyi inkişaf yolundan danışıb. Qeyd olunub ki, xalqımızın teatr sənətinin, xalq teatrımızın tarixi çox qədimlərdən başlayır. Qədim tarixə malik olan xalq oyunları, xalq komediyaları, meydan və Qaravəlli tamaşaları teatr sənətimizin ilk nümunələridir. Min illər boyu xalqımız bu tamaşaları, oyunları açıq havada, şəhər mərkəzində, kənd içində və başqa yerlərdə nümayiş etdirərək yaşadıb.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan teatrının inkişafında müstəsna xidmətlərindən danışan nazir vurğulayıb ki, bu gün ölkəmizdə teatrlara və sənət adamlarına ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərilir. Ölkəmizdə teatr binaları tikilir, əsaslı təmir edilir və ya yenidən qurulur. Teatr sənətinə göstərilən diqqət və qayğını muxtar respublikada fəaliyyət göstərən sənət ocaqlarının timsalında da aydın görmək mümkündür.

Teatrın direktoru, Azərbaycan Respublikasının Xalq artisti Rza Xudiyev çıxış edərək bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin "Azərbaycan Respublikasında Milli Teatr Gününün təsis edilməsi haqqında" 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. Teatrın direktorunun sözlərinə görə, Naxçıvan teatrı 130 ildən çoxdur ki, dərin məzmunlu əsərlər tamaşaya qoymaqla teatr tariximizdə özünəməxsus ənənə formalaşdırıb. Bu əsərlərlə Naxçıvan teatrı istedadlı aktyor, rejissor nəslinin yetişməsinə səbəb olub, bütöv bir tamaşaçı nəslinin estetik zövqünün formalaşmasında böyük rol oynayıb.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlının "Ayaz sahilində doğan Günəş" ikihissəli dramı əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim olunub.

Quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şəmsəddin Qasımov olan bu tamaşada Naxçıvan torpağının muxtariyyət tarixinin çətin və mürəkkəb dövrü tamaşaçılara təqdim edilib.

**Əli RZAYEV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında əmək fəaliyyəti necə tənzimlənir?***

***Cavab:*** – Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 61.1-ci maddəsinə əsasən, 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs qanunvericiliklə müəyyən edilmiş qayda və şərtlərlə onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsilə Dövlət Miqrasiya Xidmətindən iş icazəsi aldıqdan sonra Naxçıvan Muxtar Respublikasında işləyə bilər.

***Sual: Əməkçi miqrantla işəgötürən arasında əmək müqaviləsi hansı müddətə bağlanılır?***

***Cavab:*** – Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 63.5-ci maddəsinə əsasən, hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri işə cəlb etdikləri əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri yalnız öz iş yerlərində işlə təmin etməli və bu barədə onlarla iş icazəsinin qüvvədə olduğu müddətə əmək müqaviləsi bağlamalıdırlar. İş icazəsi alınmadan əcnəbilərlə əmək müqaviləsinin bağlanılmasına yol verilmir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***


## " Xidmət "Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

Naxçıvan şəhəri, Xətai küçəsi 6-da yerləşən "Xidmət" ATSC-nin inzibati binasında 15 may 2015-ci il tarixdə saat $11^{00}$-də səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların ümumi yığıncağının reqlamentinin təsdiqi.*

*2. Cəmiyyətin 2014-cü ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı.*

*3. 2015-ci ildə cəmiyyətin fəaliyyət proqramına baxılması.*

*4. Sair məsələlər.*

***İdarə heyəti***

## Naxçıvan Muxtar Respublikası ərazisində tikinti işləri və istehsalatın müxtəlif sahələri ilə məşğul olan müəssisə və təşkilatların nəzərinə

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən müntəzəm olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi və texniki təhlükəsizlik norma və qaydaları" üzrə yeddigünlük maarifləndirici kurslar təşkil edilir.

Müəssisənizin əməyin mühafizəsi üzrə mütəxəssisinin kurslarda iştirakını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciət edə bilərsiniz.

***Ünvan: Heydər Əliyev prospekti 32 (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binası)***

***Telefonlar (036) 545-32-99, (070) 285-77-84***

***Faks: (036) 545-32-06***


***İtmişdir***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Həsənov Yadigar Cəfər oğlunun adına olan JN-1838A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 214